## Azərbaycanda həyat şəraiti yüksəlir

Azərbaycan Respublikası Prezidentinin imzaladığı fərman və sərəncamların icrası istiqamətində görülən işlər, qəbul edilmiş Dövlət proqramlarından irəli gələn məsələlərin həlli əhalinin rifahının yaxşılaşmasına böyük təkan vermişdir. Dövlət proqramlarının uğurla həyata keçirilməsi nəticəsində yoxsulluğun səviyyəsi 2003-cü ildəki 44,7%-dən (2012-ci ilin yanvar ayının son məlumatlarına görə) 2011-ci ilin sonuna 7,6%-dək azalmışdır. Əhalinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində əldə olunmuş nailiyyətlərin davam etdirilməsi, işsizliyin və yoxsulluq səviyyəsinin daha da azaldılması, habelə bununla bağlı BMT-nin qəbul etdiyi «Minilliyin İnkişaf Məqsədləri»ndən irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində müsbət tendensiyalar davam etməkdədir. Təkcə 2011-ci ildə ölkədə 94 minə yaxın yeni iş yeri açılmış, onlardan 72,7 mini daimi iş yeri olmuşdur. Nəticədə işsizlik səviyyəsi 0,5% azalaraq 5,4%-ə enmişdir.

Cari ilin oktyabr ayında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1425,7 min nəfər olmuş və onlardan 854,1 min nəfəri iqtisadiyyatın dövlət bölməsində, 571,6 min nəfəri isə qeyri-dövlət bölməsində fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 23,6%-i təhsildə, 19,4%-i ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində, 12,5%-i sənayedə, 9,4%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində, 7,6%-i tikintidə, 4,9%-i nəqliyyat və anbar təsərrüfatında, 3,2%-i peşə, elmi və texniki fəaliyyət sahəsində, 3%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 1,8%-i informasiya və rabitə sahəsində, 14,6%-i iqtisadiyyatın digər sahələrində çalışır.

Müşahidələr göstərir ki, bu rəqəmlər daha yüksək ola bilər, çünki muzdlu işçilərin bir qismi əmək müqaviləsi bağlamadan fəaliyyət göstərir və nəticədə onların uçota alınması mümkün olmur. Bu istiqamətdə vəziyyətin yaxşılaşdırılması üçün Vergilər Nazirliyi sahibkarlıq subyektlərində işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilmiş fiziki şəxslərlə Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqavilələrinin (kontraktların) bağlanması vəziyyətinin yoxlanılması məqsədilə nəzarət tədbirlərini gücləndirmişdir. Nazirlik tərəfindən vergidən yayınma hallarının qarşısının alınması, işçi saylarının və iş yerlərinin düzgün rəsmiləşdirilməsinin təmin olunması məqsədilə cari ilin iyul-noyabr ayları ərzində həyata keçirilmiş tədbirlər nəticəsində təxminən 53 min vergi ödəyicisində 174 min işçi ilə əmək müqaviləsinin bağlanması təmin edilmişdir. Bu tədbirlər Bakı şəhərinin ərazisində fəaliyyət göstərən və əsasən işçi qüvvəsinin cəmləşdiyi obyektlər, o cümlədən şadlıq evlərində həyata keçirilir. Bakı şəhərində fəaliyyət göstərən şadlıq evləri üzrə keçirilmiş nəzarət tədbirləri nəticəsində son bir neçə ayda bu sahədə çalışan işçilərlə əmək müqavilələrinin bağlanılmasına nəzarət gücləndirilmiş, nəticədə şadlıq evlərinin faktiki işçilərinin sayı aprel ayındakı 3181 nəfərdən 8261 nəfərə qədər artmışdır.

Hazırda vergi orqanları iqtisadi fəal əhali kateqoriyasına aid edilən və fərdi əmək fəaliyyəti ilə məşğul olan şəxslərin vergi uçotuna alınması istiqamətində tədbirləri davam etdirirlər. Aparılan təhlillər zamanı müəyyən edilib ki, bəzi xidmət növlərini fərdi qaydada həyata keçirən şəxslər (şəxsi və ya ailə sürücüləri, qulluqçular, bağbanlar, mühafizəçilər, ustalar, dayələr və s.) vergi orqanlarında uçota durmadan fəaliyyət göstərir və bununla da vergiləri dövlət büdcəsinə ödəməkdən yayınırlar. Vergilər Nazirliyinin apardığı nəzarət tədbirləri nəticəsində 2012-ci ilin 10 ayı ərzində vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən 1830 nəfər belə şəxsə qarşı 73200 manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir. Hazırda vergi orqanları tərəfindən belə vətəndaşlara yazılı bildirişlər göndərilir, çağırışlar edilir, qanunvericiliyin tələbi və vergi orqanlarında uçota durmağın vacibliyi onlara izah olunur.

Görülən işlər əməkhaqlarının artımına da öz müsbət təsirini göstərmişdir. Ötən ilin statistik göstəricilərinə görə, 2011-ci ildə iqtisadi və sosial sahələrdə çalışanların əməkhaqları davamlı olaraq artmış və orta aylıq əməkhaqqı 356 manat civarında formalaşmışdır. 2012-ci ilin oktyabr ayında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 403,3 manat təşkil etmiş, yanvar-oktyabr aylarında isə keçən ilin müvafiq dövrünə nisbətən 9,0 faiz artaraq 390,2 manat olmuşdur. Sənayedə çalışanların orta aylıq əməkhaqqı 593,6 manat, tikinti kompleksində 562,6 manat, nəqliyyatda 494,8 manat, informasiya və rabitə sektorunda isə 619,1 manat təşkil etmişdir.

Bu ilin yanvar-oktyabr aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əhalinin gəlirləri 13,7% artaraq 27,1 milyard manata, hər bir nəfərə düşən gəlirlər 12,2 % artaraq 2959,4 manata

(orta hesabla ayda 295,9 manata) çatmışdır. Gəlirlərin 63,4%-i son istehlaka, 8,4%-i vergilərin, sosial sığorta və könüllü üzvlük haqlarının ödənilməsinə, 26,5%-i isə əmanətlərin və kapitalın artırılmasına sərf edilmişdir.

2012-ci ilin son on bir ayında əhalinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 13,7% artaraq 29,9 milyard manata çatmış, onun hər nəfərə düşən həcmi orta hesabla 3260,5 manat və ya ayda 296,4 manat təşkil etmişdir. Hər nəfərə düşən gəlirlərin artımı istehlak qiymətlərinin bahalaşmasını 11,0% üstələyərək 12,2% olmuşdur.

Statistik göstəricilər onu deməyə əsas verir ki, Azərbaycan qarşıdakı illərdə də böyük iqtisadi nailiyyətlər əldə edə biləcək. Müxtəlif nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da ölkəmizdə insan inkişafı, yoxsulluğun azaldılması sahəsində irəliləyişlər olduğu göstərilir. Dünya Bankının «Azərbaycan: Həyat Şəraitinin Qiymətləndirilməsi Hesabatı»na görə, ölkəmiz böyük nailiyyətlər əldə etmişdir. BMT-nin və digər beynəlxalq təşkilatların insan inkişafı ilə bağlı hesabatlarında da Azərbaycanın əldə etdiyi nailiyyətlər xüsusi vurğulanır.

Rəşad SADIQOV